AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

*Əlyazması huququnda*

**MƏRYƏM MƏHƏMMƏD QIZI ZAREİ ƏQDƏM**

# QURAN HÖKMLƏRİNİN İNSANIN İCTİMAİ TƏKAMÜLÜNDƏ ROLU

**İxtisas: 7213.01 – Dinşünaslıq**

fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilən dissertasiyanın

**AVTOREFERATI**

Bakı – 2015

Dissertasiya işi AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Farsdilli əlyazmaların tədqiqi şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** *Filologiya üzrə elmlər doktoru*
Nəsib Cümşüd oğlu Göyüşov

**Rəsmi opponentlər:** *Filologiya üzrə elmlər doktoru, prof.*
Kamandar Kazım oğlu Şərifov

*İlahiyyat üzrə fəlsəfə doktoru*
Aqil Muxtar oğlu Şirinov

**Aparıcı müəssisə**: AMEA Fəlsəfə və Hüquq İnstitutunun Dinşünaslıq və mədəniyyətin fəlsəfi problemləri şöbəsi

Müdafiə " 5 " iyun 2015-cü il tarixdə, saat $14^{00}$-da AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun nəzdində yaradılmış birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Bakı, Az1001, İstiqlaliyyət küçəsi 26, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu.

Dissertasya işi ilə AMEA Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat " " 2015-cü ildə göndərilmişdir.

Dissertasiya Şurasının Elmi Katibi,
İlahiyyat üzrə fəlsəfə doktoru Z.A.Əbilova

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** İnsanın təkamülü iki şəkildə gerçəkləşir: fərdi və ictimai; fərdi həyatda insan öz qabiliyyət və istedadının müəyyən bir qismini reallaşdıra bilir, həmin istedadın digər bir qismi isə başqaları ilə rəftar və münasibətində aşkar olur. Deməli, insanın tam və gerçək təkamülü ictimai həyatda, başqaları ilə qurulan münasibətlər müstəvisində mümkündür.

İslamın təməllərindən birincisi olan tovhid insanın ictimai təkamülü üçün mühüm amil olmaqla cəmiyyətdə vəhdət ruhiyyəsinin təmin edilməsi baxımından maraq doğurur. Çağdaş dünyada gedən bir sıra ictimai proseslərin tənzimlənməsi müxtəlif xalqların və millətlərin əməkdaşlığı sayəsində mümkündür və bu baxımdan Qurandan gələn qardaşlıq ideyası (Hucurat:10) çox əhəmiyyətlidir[1]. Başqa bir yandan, Quran dində məcburiyyəti qəbul etmir ki, bu da onun sağlam ictimai mövqeyinin göstəricisidir[2]. Bir çox Avropa mütəfəkkirləri islamın bütün bəşəriyyətə və ictimai məsələlərə münasibətində olan vəhdət prinsipini yüksək dəyərləndirmişlər[3].

Başqa bir yandan, bir çox təlimlər müəyyən zaman və məkan üçün mühüm rol oynamışlar. Ancaq islam heç vaxt müvəqqəti və kiçik hədəflərin ardınca getmir. İslamın insana və onun ictimai həyatda rəftar və davranışına olan münasibəti də belədir. Bu baxımdan Qur'ani-Kəimdə irəli sürülən ədəb normaları insanın ictimai təkamülündə xüsusi yer tutur. Bu məsələnin ayrı-ayrı tərəflərinə bir çox qaynaq və kitablarda toxunulmuş, fərdin əxlaqi tərbiyəsi mövzusu daha çox diqqət mərkəzində dayanmışdır.

Bu araşdırmada isə Qur'an, hədis, təfsir və rəvayətlər əsasında insanın ictimai təkamülü problemi sistemli şəkildə tədqiq edilir.

Quranın insana münasibəti onun naqislikdən kamala doğru təkamülü əsasında formalaşıb. İnsan ictimai həyatda müəyyən ədəb və əxlaq normalarına əməl etməklə həqiqi mənada kamilləşə bilir. Qur'anda irəli sürülən həmin normalar insanların tələbatını optimal

---

[1] Məmmədov C. Şəmsəddin əs-Səxəvi və onun "Richanul-kəffəti fi bəyani nubzətin min əxbəri əhlis-suffə" əsəri. Bakı: "Nafta-Press. 2012.s.23

[2] Мец А. Мусульманский Ренессанс. М. Наука. 1973.с.46-47

[3] Eisenstadt S.N. European Experience and the Civilizations of Modernity – Expansion and Reaction. Essays on European and Reaction in Asia and Africa. Leiden. 1998.p.21

və məntiqi şəkildə təmin edə bilən fəzilətli bir cəmiyyətin formalaşmasında mühüm rol oynaya bilər.

Bəşərin ictimai həyatı və onun təkamülü məsələsi bir çox mədəniyyətlərdə müxtəlif elm sahələrində toxunulmuş, hər bir dini-ideoloji, siyasi, ictimai-sosioloji və fəlsəfi məktəb bu məsələnin həllinə öz baxış prinsipi ilə yanaşmışdır. Siologiya elminin inkişafına baxmayaraq bir çox müasir konsepsiyalar hələ də ictimai proseslərin gedişatında insan amilimim yerini düzgün dəyərləndirə bilmirlər. İndi Qərb kulturoqları və sosioloqları etiraf edirlər ki, məsələyə sırf iqtisadi və praqmatik yöndə yanaşmaq sosial böhran yaratmış və çıxış yolu ictimai həyata mədəni və əxlaqi yöndə yanaşmada görürlər. Bu baxımdan islamda insanın ictimai təkamülə baxış üsulu öz aktuallığı ilə seçilir.

Mötəbər islam qaynaqlarında həmin mövzu ilə bağlı dəyərli ideyalar və tövsiyələr vardır ki, tədqiqat işində onların sistemli təhlilini verməyə səy göstərilir. Qurana görə insanın kamillik istəyi onun həyatının əsl mahiyyəti ilə üst-üstə düşərək dünya və axirətdə ona nicat verən bir güc kimi çıxış edir. Qur'ani-Kərim həmin kamilliyin son mərhələsini insanın Allahla yaxınlıq istəyində görür: "Ey insan! Sən (ölənə qədər) Rəbbinə doğru çalışıb çabalayırsan. Sən Ona qovuşacaqsan!" (İnşiqaq:6). Bu sadalanan məqamlar Quran ayələri və başqa islam qaynaqları əsasında insanın ictimai təkamülü mövxusunun ayrıca tədqiqat obyekti olaraq işlənməsi aktual bir məsələ kimi diqqəti cəlb edir.

**<u>Tədqiqatın işlənmə səviyyəsi və elmi yeniliyi</u>.**

İnsanın ictimai bir varlıq kimi təşəkkül və təkamülü barədə qaynaqlar çoxdur və müxtəlif mədəniyyətlər üzrə həmin mövzunun elmi şəkildə araşdırılması son dövrlər diqqəti daha çoxcəlb etmişdir. İslam mədəniyyətdə bu məsələ ilə bağlı müxtəlif kitablarda və tədqiqat əsərlərində müəyyən məlumatlara rast gəlirik. Klassik təfsir kitablarında və başqa mənbələrdə insanın ictimai təkamülündən daha çox əxlaqi məsələlər diqqət mərkəzində yerləşir. Bundan başqa həmin əsərlərdə ibadət məsələləri ilə yanaşı, xüms, zəkat, vəsiyyət, "yaxşı işlərə dəvət, pis işlərdən çəkindirmək" prinsipləri və s. kimi mövzulara geniş yer verilmişdir. Tədqiq edilən mövzu ilə əlaqədar Hürr Amilinin "Vəsailüş-şiə", Məhəmməd Bağır Məclisinin çox cildli "Baharül-ənvar", Molla Əhməd Nəraqinin "Meracül-səadət",

Həsən Şeyx Tusinin "Məkarimül-əxlaq" Məhəmməd Əli Abbasinin "Adabül-müaşirət" əsəri əsasən klassik üslubda yazılmış kitablardır, bunlarda daha çox fərdi əxlaq və fiqh məsələləri ənənəvi metodla təsvir edilir və həmin amillərin insanın ictimai təkamülünə təsiri məsələsinə birbaşa toxunulmur.

Mövzu üzrə ilkin yeni və sistemli baxışa məşhur təfsir alimi Əllamə Təbatəbaidə rast gəlirik ki, onun "İslamda ictimai münasibətlər" adlı kitabı ilk mühüm addım sayıla bilər. Müasir filosof Əllamə Murtəza Mütəhhərinin "Quranda insan" adlı əsərində insan məfhumu və onun necə dəyərləndirilməsi mövzusu izah edilir. Başqa bir müasir tədqiqatçı Cavadi Amuli ictimai münasibətlər məsələsinin qoyuluşunu Qur'an baxımından əsaslandırmağa səy göstərmişdir. Başqa əsərlərdə isə əsasən fərd və cəmiyyət, ictimai proseslər və mədəniyyət arasındakı münasibət araşdırılır. Quran hökmləri işığında insanın ictimai təkamülü məsələsi isə müstəqil mövzu kimi sistemli, müqayisəli və müasirliklə əlaqəli şəkildə təhlil edilməmişdir. Bunları tədqiqatın məqsədinə uyğun olaraq qısa şəkildə belə vermək olar:

- Quran baxımından insanın dəyərləndirilmə meyarlarının müəyyənləşdirilməsi;
- Quran və digər islam qaynaqlarında insanın ictimai varlıq kimi tanınması;
- İnsanın ictimai təkamülünü şərtləndirən ədəb və əxlaq normalarının sistemli təhlili;
- İslam və Quran baxımından təkamül mənəvi amil kimi;
- Müasir ictimai təkamül prosesində müsəlmanların əsas problemləri.

**Araşdırmanın metodu.**

Mövzunun işlənməsi üçün tarixi müqayisəli metoddan faydalanmışıq. Öncə qaynaqlar üzrə toplanan materiallar təsnif olunaraq sistemə salınmış və sonra onların üzərində təhlil aparılmışdır. Burada söhbət insan, əxlaq və cəmiyyətdən, insanın ictimai varlıq kimi formalaşmasından və onun missiyasından gedir. Məsələ islam mədəniyyəti tarixi ilə əlaqəli olduğuna görə, onun təhlilində tarixi metoddan yararlanmaq lazım gəldi.

**Tədqiqatın məqsəd və vəzifələri.**

Araşdırmanın məqsədi Qur'anın ayələri işığında insanın ictimai təkamülü prosesini sistemli şəkildə təhlil etməkdən və bu məsələnin müasirlik çağdaşlıq baxımından əhəmiyyətini gündəmə gətirməkdən ibarətdir.

İslam qayda-qanunlarının gəlişi bəşər tarixində rasional düşüncənin və ictimai həyatın tənzimlənməsinin təzahürü sayılır. Burada əsas hədəf insan və onun yaşadığı cəmiyyəti kamilliyə yetirməkdir. Tədqiqat işində qarşıda qoyulan məqsədə yetişmək üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- Quranda insan məfhumu və onun maddi və mənəvi ehtiyaclarının müəyyən edilməsi;
- Quran və islam baxımından insanın əsas missiyasının müəyyənləşdirilməsi;
- Qur'an baxımından insan amilinin ictimai varlıq kimi dəyərləndirilməsi;
- Qur'anda ədəb normaları və onların ictimai təkamül proseində rolu;
- Qur'an və islam baxımından fəzilətli cəmiyyət modeli və müasirlik.

**Araşdırmanın nəzəri və praktiki əhəmiyyəti.** Son dövrlər islamın elmi şəkildə öyrənilməsi böyük aktuallıq kəsb etmişdir və məsələnin əhəmiyyətini şərtləndirən amillərdən biri islama qarşı yönələn qərəzli münasibətdir. Belə ki, bəziləri islam qanunlarını mürtəce adlandırır, onun müasirliklə uzlaşmadığını, ictimai proseslərdən uzaq olduğunu iddia edir, müsəlman ölkələrin geriliyinin səbəbini islamda görürlər. Qur'an və islamı olduğu kimi tanıtmaq və ona vurulan əsassız ittihamları neytrallaşdırmaq üçün ilkin qaynaqlar əsasında Qur'an baxımından insanın ictimai təkamül mərhələlərini modelə salmaq lazım gəlir. Tədqiqatın bu istqamətdə irəli sürdüyü nəzəri müddəalar və ümumiləşdirici mülahizələr Qur'anşünaslıq və islamşünaslıq sahəsi üzrə araşdırmalar üzrə əhəmiyyətli ola bilər.

İslam dəyərləri və onun ictimai ədəb normaları dünyada gedən sosial-ictimai, iqtisadi və əxlaqi-mənəvi böhranlardan çıxış üçün böyük əhəmiyyət kəsb edir və bunu Qərb sosioloqları da etiraf edirlər.

Tədqiqatın nəticələri elmi-mədəni mərkəzlərdə, universitet və başqa təhsil ocaqlarında islamşünaslıq, din və sosiologiya, kulturologiya fənlərinin tədrisində praktik əhəmiyyət kəsb edir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Tədqiqatın birinci fəsli "**Qur'anda insanın səciyyələndirilməsi**" adlanır**.** Birinci yarımfəsildə insan məfhumu və onun Quranda anlamı açıqlanır. Əvvəlcə ictimai davranış normalarını əks etdirən "adab" məfhumunun mənası verilir. Orta əsrlərdə savadlı və ziyalı zümrəsinin yetişməsi üçün öyrədilən bütün elm və mədəniyyət bölmələri adab başlığı altında verilirdi. Adab – adət, qayda, bəyənilmiş rəftar deməkdir. İctimai-əxlaqi müstəvidə isə ləyaqətli davranış normaları kimi başa düşülür. "Hər şeyi yaxşı halda saxlamaq, danışıqda özünü səhvlərdən qorumaq deməkdir"[4].

Yarımfəslin əvvəlində diqqət Quranda insan məfhumunun necə anlaşılmasına yönəlir. İnsan – adam mənasında olub onun cəm formaları bunlardır: ənasi, ənasiyə və ənas – yəni bəşər, adamlar, camaat[5]. Bəşər kəlməsi insan, adəm övladı, insanlar, cəm, tək, qadın, kişi mənasında eynidir. İnsan mənasında işlənən başqa sözlər də vardır: Əbül-bəşər, Adəm (ə), İbnəl-bəşər. İns sözü də insan mənasında və cin müqabilində işlənir. Qur'anda adətən ins və cin qarşılaşmasına rast gəlirik: (Zariyat:56; Məryəm:26; Bəqərə:60; Furqan:49).

Qur'ani-Kərimdə insan sözü 65 dəfə işlənmişdir ki, bu məfhum onun zahiri cəsədini və surətini nəzərdə tutmur. Bəşər sözü də bu cür işlənir və onun ifadə etdiyi məna batini aləmi, insaniyyəti, bəşərin qabiliyyətini bildirir (İsra:11; Kəhf:54; İbrahim:34).

İnsan Haqqa doğru gedərsə həlimləşər və daha çox maariflənmiş olar. Ancaq o, fitrətdən uzaqlaşdıqca öz üstün məqam və dərəcəsini itirir[6]. Quranda hər iki cəhət göstərilir (İnsan:3; Həşr:19; Tövbə:67) və üstünlük birinciyə verilir.

---

[4] el-Kardevi Y. Sünneti anlamada yöntem. İsttanbul: Yeni zamanlar yayınevi. 2004.p.124

[5] قاموس قرآن ، قریشی ، سید علی اکبر ، تهران ، دارالکتاب اسلامی ، 78 ، چاپ سوم ، ج1،ص6

[6] روابط اجتماعی در اسلام ، طباطبایی ، محمد حسین ، علی حجتی کرمانی ، تهران ، بعثت ، بی بی تا،ص78

Keçmişlə müasir dünya arasındakı fərqləri izah edən mədəniyyət tarixçisi Vil Durant yazır: “Keçmiş dünya ilə maşın dünyası arasında olan ixtilafın kökü onların məqsədində deyil, işlətdiyi vasitələrdədir. Biz əgər öz məqsəd və qayəmizi islah etmiriksə, yalnız metod və vasitələri dəyişdiririksə, o zaman bizim inkişafımız səmərəsiz olacaqdır”[7]. Bu cəhətdən Quranın insana baxışı daha məntiqlidir.

Əksər mədəniyyətlərdə kamil insan əsas model olaraq qəbul olunur və həmin ideal islamda öz mükəmməl ifadəsini tapmışdır. İnsanlar vahid ideal ətrafında bir araya gələrkən ictimai təkamül daha uğurlu alınar.

“**İnsan və onun əsas missiyası”** adlanan ikinci yarımfəsildə insanın mahiyyəti Quran və islam baxımından dəyərləndirilir.

Tanınmış sosioloq və filosof Əllamə Cəfəri yazır: “Bəşər insaniyyət baxımından yüksək missiya daşıyır, əgər onun əli həmin ali məntiqi və həqiqi missiyaya yetişməsə, istər-istəməz yalançı hədəflər dalınca qaçmalı olacaq”[8]. Başqa sözlə desək, insan öz mahiyyət və ali missiyasını bilməsə ictimai təkamülə yetişə bilməz.

İnsanı səciyələndirən məfhumlar sırasında onun fitrəti və təbiəti mühüm yer tutur. Bir çox filosof və sosioloqlar bu barədə müxtəlif fikirlər söyləmişlər, hətta bəziləri insan fitrətini sirli və mübhəm bir məsələ kimi bilmişlər. M. P. Sartr və ya V. Hegel və R. Palmer bu qəbildəndir[9]. Ancaq F. Nitsenin bu yöndə ifrata varması Avropada düşüncə böhranı yaratdı. İndi Qərb mütəfəkkirlərinin bir qismi belə düşünür ki, nasizm və faşizm Nitsenin ideyalarından qaynaqlanmışdır[10]. İnsan fitrətində müsbət və mənfi meyylər vardır, ancaq onun ictimai təkamülü üçün bunlar ayrd edilməlidir.

İnsana xas bir sıra fəzilətlər vardır ki, bunlar onun ictimai təkamülü üçün zəıəmin hazırlayır:

1. İnsanda ayırd etmə, nəticə çıxarma qabiliyyəti vardır.

---

[7] تاریخ تمدن ، دورانت ، ویل ، صارمی و پاینده و طاهری ، تهران ، انقلاب اسلامی ، ج 4 ،292

[8] علل پیشرفت و انحطاط مسلمین ، قربانی ، زین العابدین ، تهران ، دفتر نشر فرهنگ اسلامی ، ص 50

[9] هفت نطریه در باب انسان ، لسلی ، استیونس ، تهران ، رشد ، 68 ،ص136-137

[10] بزرگان فلسفه ، هنری ، توماس ، فریدون بدره ای ، تهران ، انتشارات بنگاه و ترجمه و نشر کتاب ،ص409

2. İnsan fitrəti sonradan qazanılmır, zəif və ya güclü şəkildə hər kəsdə olur.

3. O silinib getmir və həmişə öz əsilliyini saxlayır.

Buraya etiqad və elm, fəzilət və kamal istəyi daxildir.

Dissertasiyada insana xas müştərək təbiəti şərtləndirən amillər Quran ayələri əsasında açıqlanır:

1. İnsan Allahın xəlifəsi məqamına malikdir (Bəqərə:36).
2. Azad və müstəqil şəxsiyyət sahibidir: (İnsan:1-3).
3. İlahi əmanət sahibi olaraq məsuliyyət daşıyır (Əhzab:72).
4. Haqqa doğru hərəkətə səy göstərir (İnşiqaq:6).
5. O, şərafət və kəramət sahibidir: (İsra:70).
6. Onda dəyişməz fitrət vardır (Rum:30).
7. Onun xilqəti kamildir, pərhizkarlıq və imanla kamilləşə bilər (Tin:4; Ali-İmran:15; Tovbə:20).
8. Vicdan, batini ilham, pak ruha sahibdir (Şəms:7-8; Sad:72).

Quran insanın üstün və müsbət sifətləri ilə yanaşı, onun əks qütbünü də diqqətə çatdırır:

2. İnsana xas mənfi xüsusiyyətləri pisləyən ayələrin ümumi səciyyəsini belə xülasə etmək olar:

1. Rəbbinə qarşı naşükür, dargöz və xəsisdir (Adiyat:6; İsra:100).
2. Haqqa boyun əymədən mübahisə edən, xain və olub keçənlərdən ibrət almayan məxluqdur (Kəhf:54; Məaric:19,21).
3. Fəsada meyl edir, həmişə ziyanda olur və naşükürdür (Qiyamə:5;Əsr:2; Fəcr:15-16).
4. Ağıla malik olsa da, heyvan kimi əməl edir (Ə'raf:179).

İslamda yolunu çox azmış insan heyvandan da betər sayılır[11].

Deməli, insanın təkamülü üçün mənfiliklərdən uzaqlaşmaq və fəzilətlərə yiyələnmək lazım gəlir.

Fəslin üçüncü bölməsində **"Quran və islamda insanın dəyərləndirilmə meyarı"** təhlil edilir.

Adi şəraitdə insanların vəziyyəti bir-birinə yaxındır, lakin onları fərqləndirən cəhət düşüncə qüvvəsidir ki, bu da onun təkümülündə mühüm rol oynayır. Humanitar elmlərdə insan varlığının müxtəlif cəhətlərinin öyrənilməsi böyük əhəmiyyət

---

[11] مجموعه آثار ، مطهری ، مرتضی ، تهران ، صدرا ، 83 ، ج 15 ،ص392

daşıyır. İnsanı ictimai varlıq kimi öyrənərkən onun maddi tələbatı, sosial-iqtisadi ehtiyacları nəzərə alınır.

İnsan öz əqli gücü ilə öz varlığının ictimai mahiyyətini anlayaraq özünü ictimai-əxlaqi münasibətlərin işığında dərk etməyə çalışır. Allahı tanımağın yolu insanı tanımaqdan başlayır. Dinin ictimai mahiyyətinə qısa bir nəzər salmaqla burada müəyyən edilən hüdudlar, qanun-qaydalar və hüquqi normalarnı ictimai tənzimləyici kimi başa düşmək olar. Əslində insan barədə daha mükəmməl konsepsiyaya ehtiyac vardır ki, burada onun əsl ə səadətini təmin edən ümumi cizgilər öz əksini tapsın[12]. Bu baxımdan islama müraciət etmək faydalı olar.

Müxtəlif məktəblərin insan barəsindəki baxışlarını tablo üzərinə gətirsək təzadlı bir mənzərə alınar. Məsələn, Platon insanı ideal, Aristotel fiziki yöndə dəyərləndirir, ancaq onu ağıllı, bir məxluq kimi görür[13] . Marksistlər bəzən onu istehsalçı və istehsal vasitəsi düzəldən canlı varlıq kimi tanıyırlar, ekzistensalistlər insanı mütləqiyyətçi, üsyankar, azad, mahiyyətsiz, başqa bir zümrə onu mədəniyyət yaradan məxluq kimi təqdim etmişlər[14].

Vilyam Ceymzə görə dini düşüncə bizə mənəviyyat təqdim edir ki, bu da insana xas dəyərdir[15]. Qur'ani-Kərim məhz insanın mənəvi hidayətini önə çəkir. Doğudur, bu kitabda insanın fiziki təkamül mərhələri də göstərilir, ancaq onun əqli və ruhi təkamülü diqqət mərkəzində dayanır (Taha:55; Rum:20; Rəhman:14; Muminun:12-14). İnsan vücudu müəyyən biçimə salındıqdan sonra ona münasib ruh verilir (Sad:72) və bu artıq insan xilqətinin son mərhələsidir.

Qur'anda insan barədə nazil olan ayələri qısa şəkildə nəzərdən keçirsək, onları üç dəstəyə ayıra bilərik:

1. Birinci dəstə ayələrdə insanlar Həzrəti-Adəmin övladları kimi təqdim edilir (Yasin:80; Ə'raf:31; İsra:70).

2. İkinci dəstə ayələr insanın mahiyyətcə vahid insani həqiqətdən ibarət olduğunu təsdiqləyir (Nisa:1; Ə'raf:27).

---

[12] کارنامه اسلام ، زرین کوب ، عبدالحسین ، تهران امیرکبیر ، 80 ،ص37

[13] جمهوریت ، افلاطون ، رضا مشایخی ، تهران ، معرفت ، بی تا ، ص35

[14] تاریخ تمدن ، دورانت ، ویل ، صارمی و پاینده و طاهری ، تهران ، انقلاب اسلامی ، ص321

[15] دین و روان ، جیمز ، ویلیام ، مهدی قائنی ، تهران ، بنگاه ترجمه و نشر کتاب ، بی ،ص 202 تا

3. Üçüncü qisim ayələr insanın yaradılış mərhələrini açıqlayır (Səcdə:7-8; Fatir:11; Taha:55).

Nəzərdən keçirilən ayələrin məzmununu diqqətlə araşdırdıqdan sonra aşağıdakı ümumi nəticələri çıxarmaq olar:

A. İnsanların əsli və kökü Adəmdəndir;

B. İnsan cismani varlıqla yanaşı ruha malikdir;

D. İnsanın cismani qəlibinə dəyər verən ağıl və ruhdur.

İslam və Qur'an mahiyyətcə insanın düzgün şəkildə tanınması üçün müəyyən meyarlar irəli sürmüşdür. Həmin meyarlar insanı sapınmalardan qoruyur və onu sabit və düzgün yola yönəldir (İsra:9).Peyğəmbərlərin missiyası da insanı ilahi ədəblə tərbiyələndirmək, onu ilahi xəlifə məqamına layiq səviyyəyə yüksəltməkdir (Bəqərə:30, 151).

**"Qur'ani-Kərim və ictimai münasibətlərin təkamülü"** adlanan ikinci fəslin "**İslamda insan ictimai varlıq kimi"** başlıqlı birinci paraqrafında ictimai məsələlərin təhlilində İslamın daha dinamik sosial-ictimai xarekter daşıdığı önə çəkilir[16].

İnsanların birgə yaşamaq ehtiyacının təbii bir hadisə olduğu əksər sosioloji məktəblərdə təsdiqlənir. Xacə Nəsirəddin Tusiyə görə, insan sözü "ins" kökündəndir və bu o deməkdir ki, ictimai həyat qarşılıqlı yardım olmadan mümkün deyil[17]. Filosof Mütəhhəri bu barədə belə yazır: "İnsan ictimai varlıqdır və o, qarşıya çıxan sual və poroblemlərin barədə öz məsuliyyətini müəyyən etməlidir"[18].

İctimai münasibətlərin təkamülü baxımından Qur'anda verilən əxlaq və ədəb normalarını ümumi şəkildə üç qismə ayırmaq olar:

1. Birinci qisim insanın Allahla əlaqəsini tənzimləyir;

2. İkinci qisim ədəb normaları insanın özü ilə əlaqəsini tənzimləyir;

3. Üçüncü qisim isə insanın başqaları ilə ictimai münasibətlərini tənzimləyir.

---

[16] Mehmet Bayyiğit. Sosyolojinin din seröeni ve islam (Kuran). /Kuranın sosyplojisi üzerine Denemeler. Edütör: Mehmet Bayyiğit. Konya: yediveren kitap. 2003. S.11-12

[17] میزان الحکمه ، محمدی ری شهری ، محمد ، حمیدرضا شیخی ، قم ، دارالحدیث ، 87 ، چاپ نهم ، ج 1 ، ص 140

[18] انسان در قرآن، مطهری مرتضی. تهران: صدرا ،بی تا ،ص 47

Qur'an baxımından insanlar ictimai həyata təqva və əxlaq ilə fərqlənirlərı: "Ey iman gətirənlər! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınız, pis əməllərdən ən çox çəkinəninizdir. Həqiqətən, Allah (hər şeyi) biləndir, xəbərdardır." (Hucurat:13).

Deməli, irqi və etnik fərqlər önəmli deyil, insanlar əksər halda ortaq xüsusiyyətlərə malikdir və onlar arasında vəhdət vardır. Bir qəbilənin üzvü olmaq həmin icmanın vəhdətini paylaşmaq deməkdir[19]. Zuxruf surəsi, 32-ci ayədə insanların ictimai həyatda əməkdaşlığı diqqəti cəlb edir[20].

Bəşərin ictimai həyatı o zaman dəyərli sayıla bilər ki, öz maddi-təbii və sosial ehtiyaclarını təmin etməklə yanaşı, əqli-mənəvi təkamülə yetişə bilsin. Bu önəmli məsələ tovhid etiqadına söykənən islamın mütərəqqi əxlaq və ədəb normaları işığında gerçəkləşə bilər.

Bu fikrin davamı olaraq İkinci yarımfəsildə "**İnsanın ictimai təkamülündə Quranın ədəb normalarının rolu"** araşdırlır.

İnsanın ictimai həyatı çoxşaxəli və mürəkkəb bir proses olmaqla onun xarakterindəki bütün xüsusiyyətlərin üzə çıxmasına zəmin hazırlayır. Burada formalaşan adət-ənənə və davranış normaları şəriətə uyğun şəkildə gündəmə gəlir.

A. Birgə yaşayış tərzi baxımından Qur'anın ictimai davranış normaları. Əvvəlcə ictimai həyatda ilkin rəftar və ədəb normaları kimi yer alan məqamları nəzərdən keçirək.

1. Ünsiyyət qaydaları.

*a. Salamlaşmaq.*

Son dərəcə sadə görünən bu ədəb norması ictimai həyatda insanlar arasındakı əlaqələrin qurulmasında mühüm rol oynayır. İslamda salamlaşmanın önəmli əhəmiyyəti vardır. Qur'an ayələri (Hicr:52, Nur:69 və s) və hədislərdən bəlli olur ki, salamlaşmaq şəriətin xüsusi şüarıdır[21]. Bu, önəmli ədəb norması və ünsiyyət vasitəsi sayılır (Ən'am:54; Nur: 27,61). Həmin peyğəmbər sünnəti

---

[19] علم و تمدن در اسلام ، نصر ، سید حسین ، احمد آرام ، تهران ، خوارزمی ، 59 ، ص29-30

[20] Elmalılı Hamdi Yazır. Hak dini Kuran dili Tefsirli Meali. İstanbul: Eser neşriyat.1998.s.492

[21] بحار الانوار ، مجلسی ، محمد باقر ، بیروت ، دارالاحیاء التراث ، بی تا ، ج 76 ، ص 12

icma üzvləri arasında səmimiyyət və ünsiyyəti təmin edir. Təsadüfi deyildir ki, bir çox ayələrdə Allah-təala peyğəmbərlərə salam göndərməyi yada salır (Saffat:181; Məryəm:15;Saffat:79), hətta behiştəki möminlərə salam göndərir (Yunis:15; İbrahim:23; Əhzab:44). Behiştin darül-islam – yəni "salamatlıq evi" adlandırılması bu baxımdan təsadüfi deyildir[22].

*b. Nitq və danışıq tərzi*

Nitq və söz ünsiyyəti bəşərin ictimai həyatda ən münasib və təsirli əlaqə vasitəsi, elm və informasiyanın ötürülməsində ən böyük fəziləti sayılır[23] . Nitq qabiliyyəti Allahın insana bəxş etdiyi ən dəyərli nemətlərdən biridir (Rəhman:1-4).

Qur'anın Nur surəsinin 27 və 28-ci ayəsində ictimai əlaqə baxımından diqqəti cəlb edən başqa bir məqama toxunulur ki, bu da bir-birinin evinə daxil olarkən icazə istəməkdir. Cahiliyyə dövründə adamlar bir-biri ilə qarşılaşarkən bəzən qılınc çəkərək ötüb keçirdilər. Peyğəmbər bu pis rəftarı salam rəhməti ilə əvəzlədi, insanlar arasında ülfət yaratdı, düşmənçilik hisslərini silməyə çalışdı[24].

Qur'an peyğəmbərin (s) mülayim danışıq tərzini gözəl əxlaqi sifət kimi xatırlayır (Ali-İmran:159). Danışıq üçün nəzərdə tutulan başqa bir ədəb qaydası təvazökarlıqdır (Loğman:19). Başqa bir ədəb qaydası doğru danışmaqdır (Səff:2-3; Maidə:119). Hətta doğru danışmaq imanın bir parçası sayılır (Tövbə:119).

2. Vəhdət və onun təmin edən ədəb normaları.

Şirk və bütpərəstlik cəmiyyətdə pərakəndəliyə səbəb olur (Loğman:13). Bir ayədə deyilir: "(Ya Rəsulum!) Şübhəsiz ki, sənin firqə-firqə olub dinini parçalayanlarla heç bir əlaqən yoxdur. Onların işi Allaha qalmışdır. Allah sonra (qiyamətdə) onlara nə etdiklərini xəbər verəcəkdir." (Ənam:159).

Səmavi kitab eyni zamanda ixtilaflar barədə mühakimə yürütmək, doğrunu yanlışdan ayırd etmək üçün nazil olmuşdur (Bəqərə:256; Nəhl:64). Anlaşma isə vəhdətdən doğan doğru yoldur: "Həqiqətən, möminlər qardaşdırlar. Buna görə də (aralarında bir

---

[22] تاریخ قرون وسطی تا جنگ صد ساله ، ماله ، آلبر ، عبدالحسین هژیر ، تهران ، 1388 ، ص96

[23] آرمانشهر ، مور ، توماس ، داریوش آشوری و نادر افشار نادری ، تهران ، خوارزمی ، ص53 ، 61

[24] سنن ابو داود سلیمان ابن اشعث. قاهره ،جمعیة الکنز الاسلامی 1421 ، ص

mübahisə düşsə) iki qardaşınızın arasını düzəldin və Allahdan qorxun ki, bəlkə rəhm olunasınız.” (Hucurat:10).

Peyğəmbər (s) Mədinəyə girən zaman məscid tikintisi və abadlıq işlərindən qabaq onun ilk sifarişi bu idi: “Sizin hamınız iki-iki Allah yolunda qardaş olun.”[25] .

Cəmiyyətdə vəhdət yaradan amillər belə ümumiləşdirilir:

1. Vahid hədəf və ideal.

“Hamılıqla Allahın ipinə (dininə, Qurana) möhkəm sarılın və (firqələrə bölünüb bir-birinizdən) ayrılmayın!” (Ali-İmran: 103).

2. Düz yola doğru hidayət.

“Sirat” düz yoldur və bu yol ilə gedənlər heç vaxt Haqqa qarşı inadkarlıq göstərməzlər, onlar ictimai həyatda uğur qazanarlar.

3. Böyüklərlə davranış normaları.

İslam əxlaqında cəmiyyətin bütün üzvləri ehtirama layiqdir, ancaq yaşlı nəsil xüsusi ehtiramla əhatə olunmalıdır.

4. Din qardaşları və bacıları arasında xeyirxahlıq və islah.

Hər bir imanlı fərdin islam ümməti qarşısında öhdəsinə düşən vəzifələrdən biri onların işlərini həll və islah etmək, xeyirxahlıq göstərməkdir. İslahın mənası ixtilafları aradan qaldırmaq, düşmənçiliyi dostluğa çevirmək və anlaşma yaratmaqdır. Buna “islahi-zatül-beyn” deyilir: yəni nifaq və təfriqənin silinməsi və münasibətlərin tənzimlənməsi[26].

5. İnsanlara xidmət.

İnsanlara xidmətin diapazonu çox genişdir, ata-ana, övlad, qardaş və bacıdan başlayır, qonşular, böyük-kiçik və bütün camaata qədər davam edir və bunlardan hər birinin öz yeri vardır. Təbiidir ki, bütün bunlar arasında ata-ananın borcunu ödəmək xüsusi yer tutur (Bəqərə:83, 100; İsra: 23-24; Ənkəbut;8; 86,260-261).

Toplum içində yardım və qayğı islam sosiologiyasında mühüm yer tutur. Hətta şaşqınlıq zamanı qarşı tərəflə yumşaq rəftar etmək tövsiyə olunur (Taha:44). Burada maraq doğuran başqa bir məqam müsəlmanın öz qardaşını pis əməldən çəkindirməsidir[27].

---

[25] سیره النبویه ، ابن هشام ، عبدالمالک ، بیروت ، دارالاحیاء التراث العربی ، 1413 ه ق ص150،

[26] محجه البیضاء ، فیض کاشانی قم ، دفتر انتشارات اسلامی ، بی تا ، ج 7،ص 83-85

[27] بحار الانوار ، مجلسی ، محمد باقر ، بیروت ، دارالاحیاء التراث ، بی تا ، ج 76 ، ص 236

6. Müsəlmanların bir-birinə yaxşılığı.

Qur'ani-Kərimin ayrı-ayrı ayələrində yaxşılığın növləri barədə bəhs edilir, onların özəllikləri açıqlanır və müsəlmanlar bir-birinə yaxşılıq etməyə dəvət olunur (Bəqərə:177; Bəqərə:280; Ali-İmran:92; Tövbə:104).

7. Əhd-peymanın qorunması.

Əhdə vəfa etmək ictimai həyatın əsas şərtlərindən biridir və bunsuz heç bir əməkdaşlıq və sosial anlaşma mümkün deyildir. Qur'ani-Kərimdə bəhs edilən əhd-peyman (Maidə:94). ictimai təkamül baxımdan əhəmiyyətlidir.

8. Camaatı yola vermək.

Cəmiyyətdə yaşayan insanlar öz iman, əxlaq, düşüncə, fəhm və başqa səviyyələrinə görə fərqlənirlər və bu təbii haldır. Ona görə peyğəmbərin camaatla davranışı mülayimlik, dözümlülük və yola vermək prinsipinə əsalanır (Ə'raf:199). Peyğəmbərə görə, xoş rəftar həm dünyada insanlar arasında xoş münasibət, həm də axirət savabı baxımından əhəmiyyətlidir[28] Peyğəmbər və mə'sumlar xoş xasiyyət və mülayim danışıq tərzini gözəl əxlaq nümunəsi hesab etmişlər[29].

9. Təvazökarlıq.

Qur'ana görə təvazökarlıq mömінin əsas sifətlərindəndir və təkəbbürdən çəkinmək gərəkdir (Loğman:18; Ali-İmran:134).

10. Əmanət

Əmanət maliyyə işlərinə aiddir, lakin Qur'an maarifində bu məfhum ictimai, əxlaqi və sosial həyatın bütün tərəflərinə şamil olunur (Nisa:58; Muminun:8; Ənfal:27). Əmanətin əhəmiyyəti o qədər böyükdür ki, imanla yan-yana qoyulur. Hər kim xəyanət edərsə bu əməlin nəticəsi hətta qiyamət günü onun yaxasını buraxmaz (Ali-İmran:161).

12. İctimai münasibətlərdə ədalət.

İctimai təkamüldə ədalət mühüm yer tutur (Nəhl:90). Ədalət hər kəsi ağıl, şəriət və ümumi ədəb baxımından öz layiq olduğu yerdə yerləşdirmək: yaxşı və pis əməl sahibinə əməlinə görə mükafat vermək deməkdir. Qur'anda ədalətə çox cəhətli bir məfhum kimi

---

[28] ترجمه نهج الفصاحه ، پاينده ، ابوالقاسم ، تهران ، امير كبير ، بى تا ، ص38

[29] بحار الانوار ، مجلسى ، محمد باقر ، بيروت ، دارالاحياء التراث ، بى تا ، ج 77 ، ص 150

yanaşılır və bütün səviyyələrdə onun qorunması vurğulanır (Maidə:8; Nisa:58, 127; Hucurat:9; Ən'am:152).

İslamda ədalət prinsipi sosial tərəqqini təmin etməklə yanaşı, kəskin təbəqələşmənin qarşısının ala bilir.

**"İslamda ictimai təkamül modeli və müasirlik"** adlanan üçüncü fəsildə İslam dəyərlərinin müasir ictimai inkişafla uzlaşması diqqətə çatdırılır.

İslamın bir çox dəyərləri – tovhidə dəvət (Nəml:36), səmavi kitabın (Bəqərə:129) və hikmətin təlimi (Ali İmran:158), nəfsi təmizlik və təqva (Şüəara:107), insanların nicatı və azadlığı (Ə'raf:156), insanlar arasında ədalətin qurulması (Hədid:25) və s – bunların hamısı bəşərin ictimai təkamülündə mühüm rol oynayır. Qərb mütəfəkkiri A. Karl yazır: "İnsanları doğru yola yönəltmək üçün dövrün xüsusiyyətlərini, təbabət və fəlsəfə elmlərini bilən, eyni zamanda ruhani vicdana malik olan şəxsiyyətlərə ehtiyac vardır[30].

Birinci yarımfəsildə "**İslamda təkamülün əsas meyarları"** açıqlanır.Təkamül tamamlanmaq, tədricən kamal həddinə yetişmək deməkdir[31]. Təkamül sivilizasiya ilə bağlıdır və texnologiya ilə məhdudlaşmır. Texnologiya ən yüksək təkamül mərhələsinə yetişsə belə, əgər cəmiyyətdə mənəvi dəyərlər süquta uğramışsa, bunu sivilizasiya adlandırmaq olmaz[32]. Deməli təkamül həm də mənəvi amillə bağlıdır və bu baxımdan Quranın xüsusi yeri vardır.

İslam böyük bir təkamül və inkişaf yolu keçmişdir: "Müsəlmanlar öz elm və əxlaqı ilə fərqlənmişlər və onların intellektual potensialı, fəlsəfə və başqa elm sahəsindəki uğurları Avropaya nüfuz etdi. Müsəlmanlar 600 ilə yaxın avropalıların müllimi oldular"[33].

Təkamülün əsas növləri:

1. Güc baxımdan təkamül.

---

[30] Eisenstadt S.N. European Experience and the Civilizations of Modernity – Expansion and Reaction. Essays on European and Reaction in Asia and Africa. Leiden. 1998.p.134

[31] فرهنگ لاروس ، جر ، خليل ، احمد طبيبيان ، تهران ، اميركبير ، بی تا ، ج 1 ، ص 234

[32] توسعه و مبانی تمدن غرب ، آوينی ، مرتضی ، تهران ، نشر ساقی ، 81 ، چاپ ، ص 220 سوم

[33] تاريخ تمدن اسلام و عرب ، لوبون ، گوستاو ، محمد تقی فخردايی گيلانی ، تهران ، انتشارات انتشارات مطبوعاتی ،1380، ص 751

Söhbət insanın təbiət üzərində hökmranlığından gedir və elmin köməyi ilə baş verir. Texnologiya bütün hallarda insanlığa xidmət etməlidir, ancaq bəzən o, texnoloji gücün qarşısında acizləşir. Bir sıra Qərb sosioloqları insanların texnologiyanın əsirinə çevrilməsini fəlakət hesab edirlər[34] Qur'ana görə, keçmişdə də bəzi güclü xalqlar və mədəniyyətlər mövcud olmuş (Fəcr:6-9), ancaq doğru yoldan sapdıqlarına görə məhv olmuşlar .

2. Elm baxımından təkamül

Elmə və bilgiyə yiyələnmək həvəsinin kökü Qur'ani-Kərimlə bağlıdır, belə ki, bu səmavi kitab insanı ağıl və düşüncəyə dəvət edirdi (Ələq:5; Mücadilə:11; Zumər:9). Bu növ təkamül insanın özü, təbiət və tarixi proseslər haqqında fikirlərinin aydınlaşmasını nəzərdə tutur. İslam sivilizasiyası məhz elm sayəsində öz çiçəklənmə zirvəsində yetişmişdi. Bu gerçəkliyi təkcə müsəlman müəlliflər deyil, qeyri-müsəlman alimlər Cürci Zeydan, Vil Durant, Qustav Loban, Fostel Dekulanj, M Qradi və s mədəniyyət tarixçiləri qeyd etmişlər[35].

3. Azadlıq baxımından təkamül

İslam insanın azadlığı ideyasını irəli sürməklə onun dini etiqad məsələsində də ixtiyar sahibi olduğunu bəyan edir (Bəqərə:285).

Azadlıq məsələsində həssas nöqtələrdən biri insanın öz-özünə hakim ola bilməsidir, yəni insan azadlığı onun öz istəklərinin ağıl ilə tənzimlənməsi ilə bağlıdır. İlahi dinlər və islam baxımından insanın azadlığı onun əqli və mənəvi azadlığı, nəfsi istəklərin əsarətindən qurtuluşudur. Bu nəticə etibarilə təkamül üçün zəmin yaradır.

Qur'ani-Kərimə görə, bəşərin təkamül yolu onun Allaha yaxın olmasındadır. Burada bir neçə məqam diqqəti cəlb edir:

1. Qur'anın ictimai ədəb normaları işığında əqli təkamül.

Qur'an ayələri ağıl və təfəkkürə böyük önəm verir və insan ictimai həyatda ortaya çıxan sualların cavabını ağıl və düşüncə əsasında verə bilər. Təbiidir ki, insan cəmiyyətin inkişaf və mənafeyi ağılın zəmanəti altındadır[36]. Vil Durant yazır: "Ağıla söykənən Qur'anın parlaq şöləsindən faydalanan təkcə Ərəb

---

[34] دنیای متهور نو ، هاکسلی ، آلدوز ، حشمت الله صباغی و کاویار ، تهران ، 1375، ص64

[35] The philosophy of the Kalam. By Harry Austryn Wolfson. Harvard University press. 1976.p.234-235

[36] شرح غرزالحکم و دررالکلم ، خوانساری ، جمال الدین محمد ، بی جا ، بی تا ،ج3، ص 152

yarımadası deyildi, islamın doğuşu insanlığın işıqlanması üçün zəmin yaratdı. O, dövrdə dünya müxtəlif növ ayrıseçkilik burulğanında boğulmaqda idi[37].

2. Qur'anın ictimai ədəb normaları işığında əxlaqi təkamül.

İslamda təkamülün maraqlı səhifələrindən biri əxlaq və mənəvi birlikdən məhrum olan bir cahiliyyə icmasının Quran əxlaqı sayəsində yüksək və mütərəqqi bir cəmiyyətə çevrilməsidir[38].

3. Qur'anın ictimai ədəb normaları işığında elmi təkamül.

İslam mədəniyyətinin orta çağlarda çiçəklənməsi məhz Qur'an və dini şəxsiyyətlərin elm və biliyin əhəmiyyətini önə çəkməsi ilə bağlıdır. Müsəlmanların elmi inkişaf və takamülünü şərtləndirən amilləri aşağıdakı şəkildə ümumiləşdirə bilərik:

1. Qur'an və dini şəxsiyyətlərin insanları elmə yönəltməsi və həvəsləndirməsi; "De ki: "Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi?!" (Zumər:9).

İslam qaynaqlarında elm öyrənmək zərurəti dəfələrlə vurğulanır, hər bir şəraitdə, hər bir kəsdən, hətta kafirdən elm öyrənmək diqqətə çatdırılır[39]. C. Sarton elm tarixinə yazdığı giriş məqaləsində Qur'anda elmə verilən dəyəri yüksək qiymətləndirir[40].

Maraqlı haldır ki, bir sıra elmlərin nəzəri məsələlərinin kökləri Qur'an ayələrində irəli sürülmüşdür ki, buraya astronomiya, biologiya, kosmologiya, antropologiya, botanika, psixologiya, tarix, sosiologiya, hüquq, idarəetmə, siyasət və s daxildir.

2. Elm öyrənmək üçün heç bir məhdudiyyətin olmaması.

Bir sıra ideoloji məktəblər və xristianlıq Avropada elm üçün məhdudiyyətlər qoymuşdur . Ancaq Qur'anda elm öyrənməyə heç bir məhdudiyyət qoyulmur, bəlkə əksinə elmə dəvət edilir (Zumər:18). Hədislərdə də elmə münasibət eynidir[41].

3. Qur'anın təbiət üzərində araşdırmaya çağırışı.

---

[37] تاريخ تمدن ، دورانت ، ويل ، صارمی و پاينده و طاهری ، تهران ، انقلاب اسلامی ، ج 1،ص234

[38] سيمای تمدن غرب ، موسوی لاری ، سيد مجتبی ، قم ، انتشارات اسلامی ، 13 61 ، ص 216

[39] تاريخ تمدن ، دورانت ، ويل ، صارمی و پاينده و طاهری ، تهران ، انقلاب اسلامی ، ج 1

[40] از علم سکولار تا علم دينی ، گلشنی ، مهدی ، تهران ، پژوهشگاه علوم انسانی و مطالعات فرهنگی ، 77 ، ص 101

[41] سنن ابو داود سليمان ابن اشعث. قاهره ،جمعية الكنز الاسلامی، 1421 ، ص517

Qur'ani-Kərim insanları təbiət hadisələri və kosmoloji proseslər üzərində təfəkkürə dəvət edir. Bu dəvətin özündə elmi axtarışa həvəsləndirmə ideyası vardır, yəni insan onu əhatə edən dünyada baş verənlərə səthi baxmamalı, onların səbəb və mahiyyəti barədə düşünməlidir (Qaşiyə:17-20). Bu səbəbdən də islam mədəniyyətndə uzun əsrlər elmi sahədə böyük uğurlar olmuşdur[42].

4. Qur'an işığında mədəni təkamül.

İslam peyğəmbəri bəşər tarixinin ən qaranlıq dövrlərinin birində mədəniyyətdən uzaq bir icmanı bütün istiqamətlərdə islah etməklə mədəni inkişafa yönəldi. İslam icmasında inhisar, istibdad, ayrıseçkilik, təmtəraqlı həyat tərzi, zülm və zorakılıq kimi neqativ hallar rədd edildi. Quranın irəli sürdüyü mədəni rəftar və sivil münasibət cəmiyyəti təkamülə doğru istiqamətləndirdi.

Bir sözlə, islam baxımından təkamül tapmış cəmiyyətin əsas cəhətlərini belə ümumiləşdirmək olar:

- Ədalət prinsipinə əsaslanmaq;
- Əxlaqa önəm vermək;
- Sosial müdafiə və insanların qayğısına qalmaq;
- Düşüncə azadlığı;
- Təbəqələşmə və ayrıseçkiliklə mübarizə;
- Zülm, şirk və azğınlıq ilə barışmazlıq;
- Toplumda insanların izzət və şərəfinin qorunması.

İkinci yarımfəsildə **"Müasir ictimai təkamül prosesində müsəlmanların əsas problemləri"** nəzərdən keçirilir.

Böyük bir mədəni-ictimai təkamül və inkişaf yolu keçən müsəlmanların bu günkü vəziyyəti ürəkaçan deyil. Bir çox islam ölkələrində mədəni gerilik və savadsızlıq hökm sürür, onların çoxu kasıb və iqtisadi cəhətdən asılıdır. Bu böhran və çatışmazlığın kökünü islamda və Qur'anda axtarmaq cəhdləri az deyildir, halbuki keçmişdən bizlərə qalan miras bunun əksini təsdiq edir. Qərb şərqşünasları və islamşünasları etiraf edirlər ki, islam ən yüksək və zəngin mədəniyyət kimi özünü təsdiqləmişdir.

Deməli, müsəlmanların sonrakı dövrdə geriləməsinin səbəblərini başqa yönlərdə axtarmaq lazımdır və bu amilləri aşağıdakı kimi ümumiləşdirə bilərik:

---

[42] اسلام و تمدن اسلامی ، میکل آندره ، حسن فروغی ، تهران ، سمت ، 1381 ، ص223

1. Əsl islam yolundan sapınma.

Qur'ani-Kərim dəfələrlə insanları doğru yoldan sapınmamağa dəvət edir, əks təqdirdə onlara zərər yetişəcəyi barədə xəbərdarlıq edilir. "Əgər Ondan üz döndərsəniz, yerinizə sizlər kimi olmayan başqa bir qövm gətirər!" (Məhəmməd:38)..

Misir mütəfəkkiri Məhəmməd Əbdəh yazır: "Müsəlmanların islamdan sapınması, ondan bircə adın qalması onların geridə qalmasına səbəb olmuş, yabançıların əlinə islamı pisləmək üçün bəhanə vermişdir[43]. Başqa bir islam ziyalısı olan Seyyid Camal da islamda yol verilən təhrifləri geriliyin əsas səbəblərindən sayırdı.

2. Vəhdətin pozulması və firqəçilik.

İslam firqəçilik, təfriqə, etnik və irqi ayrıseçkiliyin fövqündə dayanan səmavi bir təlimdir. Qur'ana görə müsəlmanlar arasında etiqad birliyi, milli-mənəvi vəhdət olmalıdır. Dini və milli dəyərlər bir-birini tamamlayır və insaniyyət ön plana gəlir (Hucurat:13).

3. Əxlaqi fəzilətlərin itirilməsi.

Qərb sosioloqları mənəvi süqutu müsir dövrün əsas problelərindən sayırlar və maraqlı haldır ki, həmin bəla barədə hələ Quran vaxtilə xəbərdarlıq etmişdi.  M Qandiyə görə, qərblilər yer üzünün bütün nemət və imkanlara sahib olmuşlar. Onlar böyük işlər görməyə qadirdir və başqa xalqlar bu qüdrətin qarşısında heyrətə düşürlər. Ancaq qərblilər bir məsələdə acizdirlər: öz batin aləmini düşünmək. Bu isə onların zahiri parlayan mədəniyyətinin puçluğunu sübut etməyə yetərlidir[44].

Bir çox mütəfəkkirlər – N. Pestmen, A. Taynobi, N. Homski, R. Genven. R. Qarodi – Qərb sivilizasiyasının nöqsan və eyblərini konkret faktlarla göstərmişlər. Zəngin keçmişə, mənəvi dəyərlərə malik olan müsəlmanlar öz keçmişinə, əxlaqi fəzilətinə və Qur'an təliminə söykənərək indiki böhran və gerilikdən qurtara bilərlər. Ərəb tarixçisi Hüseyn Heykəl yazır: "İslama görə ictimai həyatda hətta iqtisadi münasibətlər təqva, qardaşlıq, yaxşılıq və mərhəmət əsasında tənzimlənir, mənəviyyat ön  planda dayanır[45].

---

[43] علل پیشرفت و انحطاط مسلمین ، قربانی ، زین العابدین ، تهران ، دفتر نشر فرهنگ اسلامی ، 1374 ، ص272

[44] مجموعه آثار ، مطهری ، مرتضی ، تهران ، صدرا ، 83 ، ج 10 ، ص 401

[45] زندگانی حضرت محمد ، هیکل ، حسنین ، ابوالقاسم پاینده ، تهران ، سوره مهر ، بی ص 714 تا

Qərb sivilizasiyasında bunun əksinə olaraq iqtisadiyyat hər şeyin əsası sayılır, hətta əxlaq da ona tabe etdirilmişdi. R Qarodi bu sistemi tənqid edərək yazır: “Qərbdə israfçılıq və boş-boşuna xərclər, qida məhsullarının tullanması bir ənənə şəklinə çevrilmişdir. Amerikada hər il 10 mln ton südü kənara tullayırlar, halbuki bu miqdar süddə olan protein 8 mln nəfərin ehtiyacını ödəyə bilər”[46].

4. İslama qarşı təxribatlar.

Əvvəlki fəsildə Qur’an və hədislər əsasında müsəlmanların taleyində vəhdətin rolu barədə qısaca bəhs etmişdik. Bir ayədə deyilir: “(Ya Peyğəmbər!) Allah: “Dini qoruyub saxlayın, ona düzgün riayət edin, dində ayrılığa düşməyin!” – deyə Nuha tövsiyə etdiyini, sənə vəhy buyurduğunu, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyini dində sizin üçün də qanuni etdi...” (Şura:13). Bu və ya başqa ayələrdən bəlli olur ki, müşriklər həmişə təfriqə salmaqla məşğul olaraq möminlərin birliyinə maneçilik törətmişlər. İslam və Qur’anla müxalif olanların da hədəfi eynidir və onlar müsəlmanlar arasına ixtilaf salmaqla öz məqsədlərinə yetişməyə səy göstərirlər.

a. Vəhdətə qarşı təfriqə

Ümumiyyətlə, birlik və vəhdət mühitində yaşayan millətləri sarsıtmaq mümkün deyildir. Ona görə islamın müxalifləri birinci dərəcədə bu həssas məsələyə girişirlər. R Dopaskiye bu barədə yazır: “Əgər müsəlmanlar ictimai-siyasi birlik qura bilsələr, bu böyük bir təhlükə yarada bilər və bəlkə də dünya üçün bir nemət olar. Ancaq onlar nə qədər ki, dağınıq yaşayırlar, qorxmaq lazım deyil”[47].

b. İslama müxalif olanların əsas hədəflərindən biri Qur’anı və islam peyğəmbərini gözdən salmaqdır. Peyğəmbərin şəxsiyyətinə toxunmaq islam müxaliflərinin təbliğat proqramında xüsusi yer tutur[48].

c. İslam dəyərlərini, əxlaqını və tarixini təhrif etmək.

İslama qarşı olanlar bu zəngin mədəniyyəti gözdən salmaq məqsədilə burada mühüm yer tutan dəyərlər sistemini, əxlaqi prinsipləri, mədəniyyət və tarixi prosesləri təhrif edir və ya

---

[46] هشدار به زندگان ، گارودی ، روژه ، علی اکبر کسمایی ، تهران ، هاشمی ، ص 34-35
1384

[47] دین و روان ، جیمز ، ویلیام ، مهدی قائنی ، تهران ، بنگاه ترجمه و نشر کتاب ، بی تا ، ص 51

[48] فرهنگ اسلام در اروپا ، هونکه ، زیگرید ، مرتضی رهبانی ، تهران ، دفتر نشر فرهنگ اسلامی ، 82 ،ص 132-133

saxtalaşdırırlar. Mütəhhəri yazır: “Onların hədəfi müsəlmanları öz mədəni dəyərlərinə qarşı çevirməkdir”[49].

ç. Kütləvi informasiya vasitələri və elmi-mədəni elitanın içinə nüfuz etmək. Müsəlman ölkələrində islam dəyərlərinə qarşı mənfi rəy oyatmaq məqsədilə istifadə olunan metodlardan biri yuxarıda sadalanan sahələrə nüfuz edərək, onların vasitəsilə ictimai rəyi öz istədikləri istiqamətdə formalaşdırmaqdır. Buraya qeyri-hökumət təşkilatları vasitəsilə aparılan təbliğatı da əlavə etmək olar.

Yarımfəsildə İslam ölkələrinin ictimai təkamül prosesindən geriləməsi amilləri də toxunulur:

1. İctimai amillər.

İslamda başqa mədəniyyətlərdən fərqli olaraq din dünyadan, elm dindən, cəmiyyət dindən ayrı deyildir. Dini dəyərləri toplumdan təcrid etməklə onun mənəvi dayaqları süstləşir. Başqa bir yandan, cəmiyyətin tələblərinə laqeydlik, elm və texnologiya karvanından geridə qalmaq müsəlmanların inkişafına mane olur.

2. Siyasi amillər.

Müsəlmanların geridə qalmasının əsas amillərindən biri cəmiyyətin idarə edilməsi sistemində olan qüsurlardan ibarətdir. Elə Əməvilər və Abbasilərin dövründə xilafət səltənətə çevrildi, hakim təbəqə məmləkətin və millətin problemlərini bir kənara qoyaraq əyləncə və intriqalarla məşğul oldu. Sonralar yaranan başqa neqativ hallar vəziyyəti daha da mürəkkəbləşdirdi.

3. İqtisadi amillər.

Bu amillər bir növ islam prinsiplərindən sapınmaqdan irəli gəlir. Məsələn, belə iddia olunurdu ki, islam dini dünya və dünyəvi işlərə nifrət edir və yalnız axirəti əsas tutur. Bir növ dünyəvi həyatla din arasında uzlaşma yarada bilməyən müsəlmanlar iqtisadi sahədə geri qaldılar. Başqa bir tərəfdən, təqdirin dəyişməz olduğunu önə çəkən zümrələr insanları fəal həyatdan soyutdular, hakim təbəqənin zülmü qarşısında susmağa məcbur etdilər.

Sonda islam ölkələrinin vəziyyətini əks etdirən bir sıra statistik məlumatları nəzərdən keçirilr. İslam və Qur’an bəşəri elm öyrənməyə dəvət etdiyi halda, statistik məlumatlara görə islam ölkələrində yaşayan əhalinin 37 faizi savadlıdır, yəni 1 mlrd 400

---

[49] مجموعه آثار ، مطهری ، مرتضی ، تهران ، صدرا ، 83 ، ج 15 ، ص 43

milyon əhalidən 800 mln nəfər savadsızdır. Hər 10 nəfərdən 6 nəfəri yazıb oxumaq bilmir, halbuki xristian ölkələrdə əhalinin 78 faizi savadlıdır. Bundan əlavə, müsəlman ölkələrdə təlim-tərbiyə işi əsasən yabançı ölkələrin əlindədir, ona görə yerli əhalinin uşaqları öz milli-mədəni dəyərlərindən uzaq bir mühitdə tərbiyə alır. BMT-nin hesabatına görə ərəb ölkələrində qadınların yarıdan çoxu savadsızdır və yalnız bir faizi kompyüter tanıyır və internetdən yararlanır[50].

57 müsəlman ölkəsi üzrə orta hesabla hər ölkənin 10 universiteti vardır və 1,4 mlrd müsəlman əhalisi üçün 600 universitet fəaliyyət göstərir, halbuki Hindistanda 8408 və Amerikada isə 5785 universitet vardır (http://tamhidgroup.ir).

Eyni zamanda dünya üzrə qaçqınların böyük qismi müsəlman ölkələrin payına düşür; həmin prolemlə Əfqanıstan, Azərbaycan, Efiopiya, Somali, Fələstin, Liviya, Suriyə kimi ölkələr qarşılaşmışlar (www.ikvu.ir).

Zəngin təbii sərvətə malik olan müsəlman ölkələri bir yandan Qərbin ucuz xammal bazasına çevrilir, digər yandan isə maliyyə böhranı keçirə-keçirə öz sərmayələrini Qərbin banklarına və iqtisadi obyektlərinə yatırırlar.

57 islam ölkəsinin milli istehsalı üst-üstə 2 trilyon dollara yaxındır, halbuki mal satışı və xidmətin dəyəri Amerikada 10,4 tr, Çində 5,7 tr, Yaponiyada 3,5 tr, Almaniyada isə 1,2 tr dollar təşkil edir. Bu rəqəm Hindistan üçün 3 tr dollar, Ərəbistan, Kuveyt və Qatar üçün birlikdə 430 mlrd dollardır[51].

**Sonda bir sıra nəticələr ümumiləşdirilir:**

İslamda insan diqqət mərkəzində dayanır və onun hökmlərində etiqad ilə yanaşı, insanın ictimai-sosial həyatının tənzimlənməsi məsələsi nəzərdə tutulur. İslamda "üsuli-din" – etiqad hökmlərini əks etdirirsə, onun şaxələri – "füru" (xüms, zəkat, həcc, yaxşı işlərə dəvət, pis işlədən çəkindirmə) və əxlaqi normalar ictimai xarakter daşıyır və insanın ictimai təkamülü baxımından mühüm əhəmiyyət daşıyır. Quran hökmələrinə söykənən islamda insanın ictimai təkamül

---

[50] www.dasres.com
[51] www.dasres.com

modelinin özünəməxsus özəllikləri vardır və bunları aşağıdakı kimi ümumiləşdirmək olar:

1. İnsan ictimai varlıq kimi özü ilə icma üzvləri arasndakı münasibətləri elmi, əqli və əqliəxlaqi-mənəvi dəyərlər əsasında tənzimləyərsə öz səyi və çalışması ilə fəzilətli bir ictimai mühit yarada bilər. İnsanın ictimai təkamülü buradan başlayır.

2. Bəşər öz ictimai həyatı boyunca çoxsaylı və müxtəlif məsələlərlə üzləşir və onların həlli yollarını arayır. Burada bir sıra amillər, o cümlədən insanın istəklərini tənzimləyən psixoloji və sosial ünsürlər xüsusi yer tutur. Ancaq bunlar arasında ən önməli və etibarlı amil ağıldır. Əslində insanın dəyəri və onun şərafəti bu amil ilə ölçülür və Qurani-Kərim insanının təkamülünü həmin dəyərlə əlaqələndirir.

3. İnsanla bağlı məsələləri öyrənən antropologiya elmi əsasən dil, irq, rəng, bədən quruluşu, irsi xüsusiyyətlər kimi mövzularla məhdudlaşır və onun xilqətinin əsas missiyası müəyyənləşdirilmir. Quran isə insanı məhz onun ali təkamül missiyası baxımından dəyərləndirir ki, bu da onun ictimai təkamülündə mühüm rol oynayır.

4. İslamda insanın ictimai təkamülü onun ilk növbədə özünü və nəfsini tanımasından başlayır. Özünüdərk prosesi insanı ictimai-sosial həyatda öz davranış və rəftarını tənzimləyə yönəldir. Bununla o, təkamül mərhələlərini keçərək ictimai həyatda gerçək səadətə qovuşa bilir. İnsanın həqiqi kamalı onun intellektual və mənəvi potensialının əməli baxımdan gerçəkləşməsi sayəsində əldə edilir.

5. İslamda insanın tanınması öz əhatəliliyi ilə seçilir və bəşər həyatının bütün önəmli tərəflərini, onun fitri, psixoloji və mənəvi tələbatını əhatə edir. Vəhyə əsaslanan Quran təlimi adi idrakdan fərqli olaraq epistemoloji dərketmə metoduna önəm verir. Burada irəli sürülən təkamül konsepsiyasında əsas prinsip insanın Allaha yaxınlığıdır. Bu ideyanın kökü "Biz ona (insana) şah damarından yaxınıq" (Qaf:16, Vaqiə:85) ayəsindən qaynaqlanır.

6. Quranın önə çəkdiyi ictimai davranış prinsipləri insanların birgə yaşayış qaydalarını tənzimləyən hökmlər

toplusundan ibarət olmaqla ümumi yöndə sosial-ictimai münasibətlərin təkamülünü təmin edir. Burada insanlar arasında əlaqələrin yaxşılaşmasında rol oynayan dəyərlər arasında vəhdət, bərabərlik, qardaşlıq və qarşılıqlı anlaşma və yardım kimi prinsiplər xüsusi yer tutur. Eyni zamanda ictimai münasibətlərin təkamülündə təvazökarlıq, əmanətə sədaqət, ədalətsevərlik, qarşılıqlı etimad və etibar kimi keyfiyyətlər diqqəti cəlb edir.

7. Müsəlmanların parlaq keçmişi – elm, mədəniyyət, ədəbiyyat, sənət, iqtisadi-sosial həyat sahəsindəki nəaliyyətləri hamı tərəfindən qəbul olunan həqiqətlərdir və bunların kökündə əqli-mənəvi, əxlaqi və ictimai təkamül dayanır. Deməli, müsəlmanların keçmişdə əldə etdikləri uğurlar onların Quran və islam dəyərlərinə bağlı olduqlarından irəli gəlir. Eyni zamnda ağıl və elmi əsas tutan Quran dəyərləri bəşərin ictimai həyatda hərtərəfli təkamülü üçün zəmin rolunu oynayır. Sonrakı dövrlərdə islam ölkələrinin dinamik inkişaf karvanından geri qalmasının başlıca səbəbləri isə bir sıra əsas istiqamətlərdə əvvəlki rasional düşüncə üsulundan uzaqlaşması olmuşdur.

Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı əsərlərində öz əksini tapməşdır:

1. Quran baxımından insan təkamülünün ictimai davranış normaları/ Bakı Dövlət Universiteti İlahiyyat Faküktəsinin Elmi Məcmuəsi/, aprel (nisan) 2010, s.237-247

2.İslam və Quran baxımından insanın dəyərləndirilməsi / Elmi axtarışlar (AMEA Folklor İnstitutu)/. Avqust 2009, №4. s.123- 128

3. Qurani-kərimdə insan fitrətinin metafizik dərki/ Azərbaycan mədəniyyəti tarixi problemləri/ XII Respublika konfransının Materialları (Bakı, 3 iyun 2011-ci il). Bakı: Nurlan, 2011. s.332- 337

4.الگوی خانواده اسوه از منظر قرآن . سمینار منطقه ای زن از دیدگاه قرآن (15-17
ثور 1388، افغانستان-کابل. s.112-132

5. İslamda ictimai münasibətlərin təkamülü/ Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin Elmi məcmuəsi/. Bakı, 2012, № 18. s.179-188

6. İslamda fəzilətli cəmiyyətin əsas xüsusiyyətləri/ AMEA akad. Z.M. Bünyadov adına Şəərqşünaslıq İnstitutunun "Elmi araşdırmaları" /elmi-nəzəri məqalələr toplusu). IX buraxılış. Bakı. 2012. s. .551-554
7. İslamda ictimai təkamülün əsas cəhətləri/ Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri./ Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr edilmiş XIII Respublika konfransının Materialları (Bakı, 24 may, 2013). .s.496-504
8. Разум и рационализм в Коране. ХАБАРШЫ /ВЕСТНИК/Казахский национальный педагогический университет им. Абая/Серия исторические и соционально-политические науки/ Алматы. 2012,№3 (34). с. 146-150

## Роль коранических доктрин в общественной эволюции человека (РЕЗЮМЕ)

В работе излагаются основополагающие концепции Корана – Священного Писания Мусульман по вопросам общественной эволюции человека. Человек в кораническом понимании рассматривается с эпистемологической, онтологической и общественной точек зрение наместником Бога на земле. Поэтому на него возлагается большая миссия.

**В первой главе** анализируется человеческий феномен в трактовке коранических доктрин. Сначала дается общее определение понятия человека в Коране, где обосновываются ценности, определяющие его главных достоинств. Далее выдвигаются критерии для оценки человека, описываются также основные аспекты его социально-общественного предназначения и духовно-этической миссии.

**Вторая глава** посвящена изучению роли Корана в формировании и общественной эволюции человека. В первом параграфе излагаются основные идеи Корана, которые определяют сущность общественного бытия человека. Поэтому по Корану личность человека формируются в его общественной жизни. Главной ячейкой общественной эволюции человека является семья. Во втором параграфе данной главы анализируются основные нормы поведения для общественного совершенства человека.

**В третьей главе** обсуждаются вопросы исламской модели общественной эволюции с точки зрения современного мира. Здесь сначала дается описание основных критерий ислама для определения понятия эволюции и его значения на современном миропонимании. В последнем разделе указанной главы анализируются проблемы мусульман в современном общественном процессе; одновременно дается сравнительный анализ прошлого и настоящего, выдвигаются рекомендации на будущее.

# The role of the Quranic doctrines in social evolution of human (SUMMARY)

The paper contains important aspects of Quranic doctrines in social evolution of human. Quranic human, from an epistemological, ontological and social perspective, is a person who has searched for his existence and essence in the clear mirror of revelation and sees the start and end of himself in the path of “being from God” and “going towards God” with the purpose of “meeting God”.

**In first chapter** have been analyzed the human phenomenon in the interpretation of Koranic doctrines. First, was presented general definition of a human in Holy Quran and criteria for assessing his main advantages. Here attention greatly was given in social function and ethical-spiritual mission of human.

**The second chapter** is devoted to the study of the role Quranic doctrines in the social formation and evolution of human. In the first section was presented the main ideas of Holy Quran, which determine the nature of human social existence. Quran considers public existence of human life. In the second section of this chapter have been analyzed the basic Quraniic norms for social perfection of human.

**The third chapter** discusses the Islamic model of social evolution from point of view of of the modern world outlook. In first, there was described the basic criteria’s of Quranic thinking for the definition of social evolution. Here was analyzed also the problem of Muslims in the modern social process; have made a comparative analysis of the past and present. There are put forward recommendation for the future.

**<u>НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА</u>**
**ИНСТИТУТ РУКОПИСЕЙ им. МУХАММЕДА ФИЗУЛИ**

*На правах рукописи*

**МАРЙАМ МУХАММАД кызы АГДАМ ЗАРЕИ**

# РОЛЬ КОРАНИЧЕСКИХ ДОКТРИН В ОБЩЕСТВЕННОЙ ЭВОЛЮЦИИ ЧЕЛОВЕКА

**7213.01** – Религиоведение

## АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени доктора
философии по философии

**БАКУ – 2015**